# Azərbaycan dilində altı cür yazılan sözdüzəldici şəkilçilər

**İslam Sadıq**
Filologiya elmləri doktoru
AMEA Folklor İnstitutu. Azərbaycan.
E-mail: islamsadiq1953yahoo.com

**Annotasiya.** Azərbaycan dilində söz yaradıcılığının müxtəlif yolları var. Sait səslərin əvvəlinə və sonuna samitlərin qoşulması, hecaların təkrarlanması və yerdəyişməsi, sadə sözlərin birləşməsi, sözdüzəldici şəkilçilərin söz köklərinə artırılması və s. söz yaradıcılığında daha çox istifadə olunan yollardır. Azərbaycan dilçiliyində bu məsələlər dönə-dönə araşdırılmışdır.
Azərbaycan dili sözdüzəldici şəkilçilərlə olduqca zəngindir. Söz yaradıcılığının da əsasında daha çox söz köklərinə sözdüzəldici şəkilçilərin qoşulduğu aydın görünür. Çünki bu yolla yaranmış sözlər Azərbaycan dilinin leksik fondunda çoxluq təşkil edir.
Azərbaycan dilində sözdüzəldici şəkilçilərin iki və dörd cür yazıldığı göstərilmiş, bu mövzuda xeyli araşdırmalar aparılmışdır. Lakin bir çox sözdüzəldici şəkilçilərin altı cür yazıldığına baxmayaraq, Azərbaycan dilçiliyində bu məsələlərə toxunulmamışdır.
Bu məqalədə ilk dəfə olaraq Azərbaycan dilindəki bir çox sözdüzəldici şəkilçilərin altı cür yazıldığı fikri irəli sürülmüşdür. *Maq, mək, mıq, mik, muq, mük* sözdüzəldici şəkilçilərinin *ma, mə, mı, mi, mu, mü* şəkilçilərinin sonuna *q* və *k* samit səsləri artırılmaqla yarandığı göstərilmiş və onların iştirakı ilə söz yaradıcılığına aid çoxsaylı örnəklər verilmiş, həmin şəkilçilərin altı cür yazıldığı sübuta yetirilmişdir.
**Açar sözlər:** Azərbaycan dili, sözdüzəldici şəkilçi, altı cür yazılan şəkilçi, söz yaradıcılığı

**Məqalə tarixçəsi:** göndərilib – 14.02.2021; qəbul edilib – 06.03.2021

# Six types of word-building suffixes in the Azerbaijani language

**Islam Sadig**
Doctor of Philological Sciences
Institute of Folklore of ANAS. Azerbaijan.
E-mail: islamsadiq1953yahoo.com

**Abstract.** There are different ways of word creation in Azerbaijan language. Connection of consonants to the beginning and end of the vowels, repetition and displacement of syllables, combination of simple words, and adding word-building suffixes to word roots and so on are more commonly used in word creation. These issues have been investigated in Azerbaijan linguistics.
There are a lot of word-building suffix in the Azerbaijani language. On the basis of the word creation are standing word-building suffix joining of the word roots. Because the words formed in this way constitute the majority in the lexical fund of the Azerbaijani language.
There are two and four types of word-forming suffixes in the Azerbaijani language, significant investigations have been made on this subject. But in spite of the fact that there are six types of word-building suffix, these issues have not been addressed in Azerbaijan linguistics.
In this article it is noted that word-building suffix was written in six types. It is shown that word-building suffixes such as *maq, mək, mıq, mik, muq, mük* have been created by adding consonant *q* and *k* to the end of suffixes such as *ma, mə, mı, mi, mu and mü* and numerous examples are given

belonging to word creativity with their presence, was proven that those suffix were written in six types.
**Keywords:** Azerbaijani language, word-building suffix, suffixes in 6 types, word creation

**Article history:** received – 14.02.2021; accepted – 06.03.2021

## Giriş / *Introduction*

Azərbaycan dilçiliyində söz yaradıcılığı, o cümlədən sözdüzəldici şəkilçilərin köməyi ilə yeni sözlərin yaranması hərtərəfli öyrənilməsə də, bu sahədə bir çox məsələlər hələ də öz həllini gözləyir. Azərbaycan dilində söz yaradıcılığının daha geniş yayılmış yollarından biri söz köklərinə sözdüzəldici şəkilçilərin qoşulmasıdır. Türk dilləri sözdüzəldici şəkilçilərlə olduqca zəngindir. Maraqlıdır ki, hazırda dilimizdə elə düzəltmə sözlər var ki, onları dilçilikdə sadə söz hesab edirlər. Bu fikir xüsusilə ikihecalı sözlərə aiddir. Dilçilər bir çox sözlərin iki hecalı olduğuna söykənərək, onları sadə söz adlandırmışlar. Buradakı çətinlik, hər şeydən öncə, tək sait səslərdən və bir hecadan ibarət söz köklərini ayırmaqla bağlıdır. Halbuki dilimizdə çoxlu ikihecalı sözlər var ki, onların tərkibindəki söz kökləri və sözdüzəldici şəkilçilər aydın şəkildə görünür.

Azərbaycan dilində sözdüzəldici şəkilçilər yalnız söz köklərinə qoşulmur. Dilimizdə elə sözlər var ki, onlar düzəltmə və mürəkkəb sözlərin sonuna sözdüzəldici şəkilçilərin artırılması yolu ilə yaranıb. Məsələn, *uzunçuluq* sözünün kökü *u* saitidir. Ona ardıcıl olaraq *zun*, *çu* və *luq* sözdüzəldici şəkilçiləri qoşulmuşdur. *U* kökünə öncə *zun* qoşulmaqla *uzun*, ona *çu* sözdüzəldici şəkilçisi artırılmaqla çox danışan anlamlı *uzunçu*, sonuncuya *luq* sözdüzəldici şəkilçisi əlavə edilməklə *uzunçuluq* sözləri yaranıb. Burada sözün kökü *u* saitidir. Azərbaycan dilində sözlərin başında və ortasında təklikdə heca əmələ gətirən sait səslərin hamısı söz köküdür [3, s.345-346; 1, s.12]. Şumer və türk dillərində *a, e, ə, ı, i, u* sait səsləri söz olmuşdur. Onlardan bəziləri indi də söz kimi işlənir. *O* səsi hazırda şəxs və işarə əvəzliklərini bildirir.

## Altı cür yazılan sözdüzəldici şəkilçilər və düzəltmə sözlər

Azərbaycan dilində sözdüzəldici şəkilçilərin böyük əksəriyyəti altı cür yazılır. *Ma, mə, mı,mi, mu, mü* belə şəkilçilərdəndir. Onların köməyi ilə çoxlu sözlər yaranmışdır. Söz yaradıcılığında bu şəkilçilərin hamısı eyni dərəcədə məhsuldar deyil. Məsələn, *ma, mə* şəkilçilərinin köməyi ilə daha çox, *mı, mi, mu, mü* şəkilçilərinin köməyi ilə nisbətən az söz əmələ gəlmişdir.

Bir çox milli Azərbaycan yeməklərinin adları *ma* sözdüzəldici şəkilçisinin köməyi ilə yaranmışdır. Dol+*ma*, buğla+*ma*, bula+*ma*, qovur+*ma*, basdır+*ma*, yax+*ma*, döy+*mə* (kabab), küllə+*mə* və s. belə yemək adlarıdır.

*Dolma=dol+ma. Dolma* milli Azərbaycan xörəyidir. Döyülmüş əti kələm və ya üzüm yarpağına doldurmaqla, bükməklə hazırlanır. Yeməyin adı onun hazırlanma qaydasına tam uyğundur. *Dolma* sözü doldurmaq feilinin *dol* kökünə *ma* sözdücəldici şəkilçisi qoşulmaqla alınıb.

*Qovurma= qovur+ma*. Qovurma əti öz yağında qovurmaqla hazırlanır. Qovurmaq feilinin *qovur* əmr formasına *ma* sözdüzəldici şəkilçisi qoşulmaqla yaranıb. Yeməyin hazırlanma qaydasına görə ona bu ad verilib.

*Doğrama= doğra+ma.* Bu yemək südü və ya qatığı iri kasaya töküb içinə çörək doğramaqla hazırlanır. Doğramaq feilinin *doğra* əmr formasına *ma* sözdüzəldici şəkilçisi artırılmaqla yaranıb. Yeməyin adı onun hazırlanma qaydasına uyğun olaraq qoyulub.

*Alma=al+ma*. Alma dilimizdə həm feil, həm də isim kimi işlənən iki sözdür. Onların yalnız yazılışı eynidir. Söz kökləri, şəkilçiləri və yaranma yolları eyni deyildir.

*Alma* feili *al* feil kökünə *ma* inkar şəkilçisi qoşulmaqla alınıb.

*Alma* isminin də kökündə *al* sözü durur. Lakin bu feil yox, sifətdir. Ona da *ma* şəkilçisi qoşulmuşdur. *Alma* feilindən fərqli olaraq burada *ma* sözdüzəldici şəkilçidir. *Alma* isminin kökündə *al* sifətinin durduğunu "Dədə Qorqud"dakı bir cümlə də təsdiqləyir. Dirsə xan öz xatununa deyir: "Güz *alma*sına bənzər *al* yanaqlım" [2, s.20]. Bu cümlədəki "al yanaqlım" deyimi "qırmızı yanaqlım" anlamında olub, güz (payız) almasıyla qarşılaşdırılmışdır. Qırmızı yanağın güz almasına bənzədilməsi *alma* sözünün *al* (qırmızı) kökündən yarandığını göstərir. Göründüyü kimi, *alma* feilinin və *alma* isminin hər ikisinin kökü *al* sözüdür. Bu söz birincidə feil, ikincidə sifətdir. Hər iki sözün kökünə *ma* şəkilçisi qoşulmuşdur. Birinciyə qoşulan *ma* inkar, ikinciyə qoşulan *ma* sözdüzəldici şəkilçidir.

*Oxşama=oxşa+ma.* Uşaq yuxudan ayılandan sonra onu oxşamaq, əzizləmək üçün şeir oxuyurlar. Ona *oxşama* deyirlər. Bu söz *oxşa* feilinə *ma* sözdüzəldici şəkilçisi artırılmaqla alınıb.

*Nazlama=nazla+ma.* Bu söz *oxşama*nın eynidir. *Nazla* feilinə *ma* sözdüzəldici şəkilçisi qoşulmaqla yaranıb. Uşağı əzizləyəndə ona həm *oxşama*, həm də *nazlama* deyirlər.

*Dolama=dola+ma.* Ən çox insanın barmağına çıxan bir xəstəliyin adıdır, isimdir. *Dola* feil kökünə *ma* sözdüzəldici şəkilçisi artırılmaqla alınıb.

*Yarma= yar+ma.* Narın yox, bir qədər dənəvər üyüdülmüş undur. *Yar* feil kökünə *ma* sözdüzəldici şəkilçisi qoşulmaqla alınıb.

*Qırma= qır+ma.* Güllənin içinə qoyulan qurğuşun diyircəklərdir, isimdir. *Qır* feilinə *ma* sözdüzəldici şəkilçisi artırılmaqla yaranıb. *Qırma* və *qırmaq* sözləri anlamca da səsləşir.

*Çalma=çal+ma.* Bir baş örtüyünün adıdır. *Çal* kökünə *ma* sözdüzəldici şəkilçisi qoşulmaqla alınıb. Sözün *çal* kökü həm feil, həm də sifət ola bilər.

*Barama=bara+ma.* İpək qurdunun və onun sarıdığı xammalın adıdır. *Bara* söz kökünə *ma* sözdüzəldici şəkilçisi qoşulmaqla alınmış isimdir.

*Ma* sözdüzəldici şəkilçisinin köməyi ilə çoxlu yer adları (Yalama, Yaşma), şəxs adları (Xurma) və s. yaranıb.

*Düymə= düy+mə.* Bu söz isimdir. Düymələmək feilinin *düy* əmr formasına *mə* sözdüzəldici şəkilçisi artırılmaqla yaranıb.

*Süzmə=süz+mə.* Qatığı, ayranı və s. süzməklə alınan ağartı növüdür. Süzmək feilinin *süz* əmr formasına *mə* sözdüzəldici şəkilçisi artırılmaqla əmələ gəlib.

*Külmə=kül+mə.* Siyənək fəsiləsindən yeyilən bir balığın adıdır, isimdir. *Kül* sözünə *mə* sözdüzəldici şəkilçisi qoşulmaqla alınıb.

*Külmə=kül+mə.* Yaş baramanı sıxıb qurutmaq üçün istifadə edilən çəndir, isimdir. Külmə balıq adının omonimidir. Hər iki söz eyni kök və şəkilçidən ibarətdir. Yaranma yolları da eynidir.

*Gəlmə=gəl+mə.* Bu söz həm feil, həm isimdir. *Gəlmə* adam deyəndə isim olur. O *gəl* feilinə *mə* sözdüzəldici şəkilçisi qoşulmaqla yaranıb. *Gəlmə* feili isə *gəl* kökündən və *mə* inkar şəkilçisindən ibarətdir.

*Tirmə=tir+mə.* Tirmə bir parçanın adıdır, isimdir. *Tir* ismindən və *mə* sözdüzəldici şəkilçisindən yaranıb.

*Çəkmə=çək+mə.* Ayaqqabı növüdür, isimdir. Çəkmək feilinin *çək* əmr formasına *mə* sözdüzəldici şəkilçisi qoşulmaqla alınıb. Çəkməni geyinərkən onun boğazından tutub yuxarı çəkirlər. *Çəkmə* adı məhz buna uyğun olaraq qoyulub.

*Mə* sözdüzəldici şəkilçisinin köməyi ilə bir çox şəxs adları (Həlmə, Məsmə və s.), yer adları (İrəmə), oyun adları (dirədöymə), yemək adları (döymə kabab) və s. yaranıb. Şumer şairi Enlil İsmə Dağanın adındakı İsmə sözü də *İs/İş* kökündən və *mə* sözdüzəldici şəkilçisindən əmələ gəlib. Dörd riyazi əməlin hamısının adı feil köklərinə *ma, mə* sözdüzəldici şəkilçiləri qoşulmaqla yaranıb: *topla+ma, çıx+ma, vur+ma, böl+mə.*

*Samı=sa+mı.* Boyunduruğu öküzün boynunda saxlamaq üçün ona keçirilən dörd ədəd yumru ağacdır. Qədim dildə *sa* söz kökü olub. Ona *mı* sözdüzəldici şəkilçisi artırılmaqla *samı* sözü alınıb, isimdir.

*Xımı=xı+mı.* Yeyilən bir bitkinin adıdır, isimdir. Daha çox taxıl olan yerdə bitir. Yeyəndə *xı, xı* səsi çıxır. *Xı* burada sözün kökündür. Ona *mı* sözdüzəldici şəkilçisi artırılmışdır. Dili-

mizdə *xımır-xımır yemək* deyimi var. Onun da kökü *xı* hecasıdır.

*Badamı=badam+mı.* Bir rəngin adıdır. Badama oxşadığına görə adına *badamı* deyirlər. *Badam* sözün kökündür, isimdir, ona *mı* sözdüzəldici şəkilçisi qoşulmuşdur. Bu zaman *m* səsləri qoşalaşdığına görə, sözün kökündəki *m* səsi düşmüşdür. Bunu *badamı* sözünün hecalara bölünməsi də aydın göstərir: *ba+da+mı.* Heca Qanununun tələbinə görə, düzəltmə sözlərdə samitlər qoşalaşarkan yalnız sözün kökündəki səs düşür, şəkilçi heç vaxt parçalanmır.

*Haramı=hara+mı.* Azərbaycanda böyük bir düzənliyin adıdır. Çox güman ki, *Hara* kökünə *mı* sözdüzəldici şəkilçisi qoşulmaqla yaranıb. Ancaq sözün kökü *haram* da ola bilər. Bu halda *m* samitləri qoşalaşdığına görə sözün kökündəki *m* düşməlidir.

*Əmi=ə+mi. Əmi* sadə yox, düzəltmə sözüdür. *Ə* kök, *mi* sözdüzəldici şəkilçisidir. *Ə*-nin kök olduğunu ona digər şəkilçilərin qoşulması da təsdiqləyir: *ə+lək, ə+rik, ə+tək, ə+mək, ə+lik, ə+zik, ə+məl* və s. Türk dilindəki Heca qanunu da sözlərin başında tək heca əmələ gətirən sait səslərin söz kökü olduğunu söyləməyə əsas verir [5, s.28].

*Gəmi=gə+mi. Əmi* sözündə olduğu kimi, burada da *gə* sözün kökü, *mi* ona qoşulmuş sözdüzəldici şəkilçidir. *Gə* kökünə digər şəkilçilər də qoşula bilir: *gə+lin, gə+zər, gə+lir* (qazanc), *gə+bə, gə+də, gə+mik.*

*Ə* və *gə* hecalarının söz kökü olduğunu bir fakt da təsdiqləyir ki, onlara altı cür yazılan *ma, mə, mı, mi, mu, mü* şəkilçilərinin sonuna *q* samit səsi artırılmaqla yaranmış *mək* və *mik* sözdüzəldici şəkilçiləri də qoşula bilir: *ə+mək=əmək; gə+mik=gəmik* (sümük).

*Demi=de+mi.* Bəzi bölgələrdə qəlyana *demi* deyirlər. *Demi* türk sözüdür. *De* feilinə *mi* sözdüzəldici şəkilçisi qoşulmaqla alınıb.

*Mi* sözdüzəldici şəkilçisinin köməyi ilə yer (Cimi-Qubada kənd), şəxs (Səlmi, Məmi) adları da yaranıb.

Dilimizdə *mu, mü* sözdüzəldici şəkilçiləri az məhsuldar olub. Onların əvəzinə *mu, mü* sual ədatlarının daha çox işləndiyi aydın görünür.

Şumer dilində oğul, övlad anlamında *dumu* sözü işlənmişdir. Bu söz *du* kökündən və *mu* sözdüzəldici şəkilçisindən əmələ gəlib, isimdir. Hazırda dilimizdə işlənən "tumun kəsilsin" deyimi məhz "oğlun, qızın olmasın, nəslin kəsilsin" anlamındadır.

*Şomu= Şo+mu.* Yeyilən bir bitkinin adıdır. Ondan dovğa bişirirlər. *Şo* söz kökünə *mu* sözdüzəldici şəkilçisi qoşulmaqla alınıb, isimdir.

*Ma, mə, mı, mi, mu, mü* sözdüzəldici şəkilçilərinin sonuna uyğun olaraq *q* və *k* samit səsləri artırılmaqla onlardan üç səsli yeni sözdüzəldici şəkilçilər yaranıb. Bu zaman qalın saitlilərə *q*, incə saitlilərə *k* səsləri qoşulur. *Maq, mək, mıq, mik, muq, mük* sözdüzəldici şəkilçiləri dilimizdə çox məhsuldar olub, onların köməyi ilə xeyli sözlər əmələ gəlib.

*Yamaq=ya+maq.* Burada *ya* yamamaq feilinin kökü, *maq* sözdüzəldici şəkilçidir. Alınmış söz isimdir.

*Yumaq=yu+maq.* Burada *yu* feil kökünə *maq* sözdüzəldici şəkilçisi qoşulmaqla *yumaq* ismi alınıb.

*Başmaq=baş+maq. Baş* sözün kökündür, isimdir. Ona *maq* sözdüzəldici şəkilçisi qoşulmaqla isimdən isim alınıb.

*Yaşmaq=yaş+maq. Yaş* sözün kökü olub sifətdir. Ona *maq* sözdüzəldici şəkilçisi artırılmaqla sifətdən isim yaranıb.

*Quymaq=quy+maq.* Azərbaycan xalqının milli yeməyinin adıdır. *Quy* sözün kökü, *maq* sözdüzəldici şəkilçidir.

Qaymaq=*qay+maq.* Südün və qatığın üzüdür, isimdir. *Qay* kökünə *maq* sözdüzəldici şəkilçisi artırılmaqla əmələ gəlib.

Çaxmaq=*çax+maq.* Çaxmaq sözü həm isim, həm də feildir. *Çax* kökünə *maq* sözdüzəldici şəkilçisi qoşulanda isim, *maq* məsdər şəkilçisi qoşulanda feil alınır. Göründüyü kimi, yazılışı və kökü eyni olan bu sözləri əmələ gətirən şəkilçilər müxtəlifdir.

Qazmaq= *qaz+maq.* Bu söz də həm isim, həm feildir. Onun *qaz* kökünə *maq* sözdüzəldici şəkilçisi artırılanda *qazmaq* ismi alınır. *Qazmaq* aşın altında düyünün bir hissəsinə yumurta vurmaqla hazırlanır. *Qaz* kökünə *maq* məsdər şəkilçisi artırılanda *qazmaq* feili yaranır. *Qazmağı* qazandan çıxarmaq üçün onun içindəki aşı qazmaq lazımdır. Çox güman ki, qazmaq sözünün kökü olan *qaz* hecası məhz bununla bağlıdır.

Barmaq=*bar+maq.* Bədən üzvüdür, isimdir. *Bar* kökünə *maq* sözdüzəldici şəkilçisi qoşul-

maqla alınıb. Əslində sözün kökü *ba* hecasıdır. *Ba* şumer və türk dillərində söz kökü olmuşdur [4]. Onun sonuna *r* samit səsi artırılmaqla *bar*, sonuncuya da *maq* sözdüzəldici şəkilçisi qoşulmaqla *barmaq* sözü yaranıb.

Qarmaq=*qar+maq*. *Qar* kökündən və *maq* sözdüzəldici şəkilçisindən əmələ gəlib, isimdir.

Yemək= *ye+mək*. Bu söz həm isim, həm feildir. Hər ikisi *ye* kökündən yaranıb. Ona *mək* sözdüzəldici şəkilçisi qoşulanda isim, *mək* məsdər şəkilçisi qoşulanda feil alınır. "Ona yemək verin" cümləsində *yemək* isimdir. "O yemək istəmir" cümləsində isə yemək sözü həm isim, həm də feil ola bilir. "O nə istəmir?" sualı veriləndə *yemək* sözü isim, "o nə etmək istəmir?" sualı veriləndə isə feil olur. "Yemək hazırdır" və "yemək olmaz" cümlələrindən birincidə *yemək* sözü isim, ikincidə feildir.

Kürmək=*kür+mək*. İpi, kəndiri və s. bağlamağın bir növüdür. Düyündən fərqli olaraq *kürmək* bağlanmış ipin, kəndirin bir ucu elə saxlanır ki, onu çəkən kimi bağ açılır. Söz *kür* kökünə *mək* sözdüzəldici şəkilçisi artırılmaqla yaranıb.

Dürmək=*dür+mək*. Çörəyin arasına pendir, ət, şor doldurmaqla hazırlanan milli yeməkdir. Onu hazırlayarkan çörəyi dürmələyirlər. *Dürmək* sözünün kökündə dürmələmək feilinin ilk hecası durur, ona *mək* sözdüzəldici şəkilçisi qoşulmuşdur.

Ətmək=*ət+mək*. Qədim türk dilində çörəyə *ətmək* deyilmişdir. Onun *əkmək* şəklinə də rast gəlinir. Hər iki halda söz onun kökünə (*ət* və ya *ək*) *mək* sözdüzəldici şəkilçisi artırılmaqla yaranıb.

Əmək= *ə+mək*. *Ə* sözün köküdür. Ona *mək* sözdüzəldici şəkilçisi qoşulmuşdur. Alınan söz isimdir.

Dırmıq=*dır+mıq*. Kənd təsərrüfatı alətidir. Burada *mıq* sözdüzəldici şəkilçidir, ona heç bir şübhə ola bilməz. Onun qoşulduğu *dır* isə sözün köküdür.

Cımıq=*cı+mıq*. Heyvan yemidir, isimdir. *Cı* kökündən və *mıq* sözdüzəldici şəkilçisindən əmələ gəlib.

Kalmıq=*kal+mıq*. Etnonimdir. Sözün kökü *kal*dır. *Kal* həm isim, həm də sifətdir. Camışın erkəyinə *kal* deyilir və bu söz isimdir. Yetişməmiş meyvə haqqında da *kal* sözü işlədilir (*kal* meyvə) və burada həmin söz sifət olur.

Kalmıq sözünün *kal* ismindən və *mıq* sözdüzəldici şəkilçisindən yarandığı daha çox ağılabatandır.

Kəsmik=*kəs+mik*. Bir ağartının adıdır, isimdir. *Kəs* feilinə *mik* sözdüzəldici şəkilçisi qoşulmaqla alınıb.

Gəmik=*gə+mik*. Qədim türkcədə sümüyə *gəmik* də deyilmişdir. *Gə* söz kökü haqqında *gəmi* sözündə danışılmışdır. *Gəmir, gəmirti, gəmirmək, gəmirici*(lər) sözlərinin hamısı *gə* kökündən yaranıb, *sümüklə* (gəmiklə) bağlıdır. *Gəmik* sözü də eyni kökə *mik* sözdüzəldici şəkilçisi qoşulmaqla yaranıb. Yaxın anlamlı bu sözlərin hamısının bir kökdən (*gə)* yaranmağı heç bir şübhə doğurmur.

Ərəmik=*ərə+mik*. Heyvan uzun zaman çöldə özbaşına otlayıb hüröyünləyəndə ona *ərəmik* deyirlər. Sözün kökü *ə* səsidir. Ona əvvəlcə *rə*, sonra da *mik* sözdüzəldici şəkilçiləri qoşulmaqla *ərəmik* sözü alınıb.

Kumuq=*ku+muq*. Etnonimdir. Şimali Qafqazda-Dağıstanda yaşayan türk tayfasının adıdır. *Ku/qu* qədim türk dilində söz olub. Ona *muq* sözdüzəldici şəkilçisi artırılmaqla *kumuq* etnonimi yaranıb.

Yumuq= *yu+muq*. *Yumuq* sözü sifətdir. *Yum* feilinə *muq* sözdüzəldici şəkilçisi qoşulmaqla əmələ gəlib. *M* samitləri qoşalaşdığına görə sözün kökündəki *m* səsi düşüb.

Sümük=*sü+mük*. *Sü* sözün köküdür. Ona *mük* sözdüzəldici şəkilçisi artırılmaqla *sümük* sözü yaranıb, isimdir.

Dümük=*dü+mük*. Bu söz bir şeylə başını qatmaq, vaxtını öldürmək anlamında işlənən isimdir. *Dü* kökünə *mük* sözdüzəldici şəkilçisi qoşulmaqla əmələ gəlib.

Yuxarıdakı sözlərin ilk hecalarının bəziləri bu gün heç bir anlam daşımadığına görə, onların kök olmağı şübhə doğura bilər. *Sa, xe, gə, şo, ya, quy, qay, dür, dır, cı, du* hecaları ilk baxışda söz kökünə oxşamır. Onların qədim dildə söz kökü olub, hər hansı anlamda işləndiyi haqqında elmi baxımdan inandırıcı fikirlər söylənib [3]. Burada onu da əlavə etmək lazım gəlir ki, həmin hecalardan hər hansı birinə üçdən çox sözün başlanğıcında rast gəlinməsi onların söz kökü olduğunu təsdiqləyir.

Sa=*saya, sayaçı, sayın, sarıq, sağır, sarıyanız, sayalı, sarımsaq, sarı, sağın, satıl, samı,sayıq; saman, salıq, satış, sağın.*

Xı=*xımı, xıdır, Xızı, xımır-xımır, xırıltı, xışıltı; xızır.*

Ya=*yağı, yağır, yağış, yalın, yalan,yaman, yamaq, yalaq, yazı, yazıq, yatdaq, yabı, yatırğı;*

Qay=*qaysı, qaysaq, qaymaq, qaytaq, qayda, qayçı, qaynaq, qayğanaq, qayğı;*

Quy=*quyruq, quymaq, quylamaq;*

Dır=*dırmıq, dırnaq.*

Cı=*cımıq, cızıq, cılız, cılıtqa, cığır*

Dü=*dümük, düdük, düyə, düyərli, düzülüş, düyüm, düzüm, düyün, düyür, düşərli, düzən, düzənlik, düdəmə, düzəliş, dügər;*

## Nəticə / *Conclusion*

Beləliklə, yuxarıdakı araşdırmalardan aydın şəkildə görünür ki, ikisəsli *ma, mə, mı, mi, mu, mü,* həmçinin onların sonuna uyğun olaraq *q, k* samitlərinin artırılması yolu ilə yaranmış üçsəsli *maq, mək, mıq, mik, muq, mük* sözdüzəldici şəkilçiləri doğrudan da altı cür yazılır. Onların köməyi ilə dilimizdə yüzlərlə yeni sözlər yaranıb.

Bu yazıda həmin şəkilçilərin altı cür yazıldığı öz təsdiqini tapmışdır. Bundan başqa, *ma, mə, mı, mi, mu, mü* sözdüzəldici şəkilçiləri ilə onlarla eyni cür yazılan *ma, mə* inkar şəkilçilərinin, *mi, mı, mu, mü* sual ədatlarının, *maq, mək* sözdüzəldici şəkilçiləriylə onlara oxşayan *maq, mək* məsdər şəkilçilərinin fərqi, necə yarandıqları və sözlərə necə qoşulduqları da aydınlaşdırılmışdır. Məsələn, *alma* iki sözdür. Onlardan biri isim, digəri feildir. Bu sözlərin həm kökləri, həm də onları əmələ gətirən şəkilçilər müxtəlifdir. Sözdüzəldici şəkilçilərin bu yolla araşdırılıb daha dərindən öyrənilməsinə ehtiyac duyulur.

## Ədəbiyyat / *References*


1. Əhmədov B. Azərbaycan dili şivələrində fono-semantik söz yaradıcılığı. Bakı: BDU nəşriyyatı, 1994.
2. “Kitabi-Dədə Qorqud” (tərtib edəni H.Araslı). Bakı: Gənclik, 1978.
3. Sadıq İ. “Şumer və türk dillərində ilk sözlər və səs artımı yolu ilə söz yaradıcılığı”/ Dilçilik İnstitutunun Əsərləri. №1. Bakı, 2018.
4. Sadıq İ. “Şumer və türk dillərində eyni semantik söz yuvaları”/ Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Sovet İttifaqı Qəhrəmanı Ziya Musa oğlu Bünyadovun xatirəsinə həsr olunmuş “Müasir şərqşünaslığın aktual problemləri” (“Ziya Bünyadov qiraətləri”) mövzusunda Beynəlxalq Elmi Konfransın (16-17 oktyabr 2017-ci il, Bakı) Materialları. Bakı, 2018.
5. Sadıq İ. “Türk dilində Heca qanunu” / Sivilizasiya. №1. Bakı, 2016.


## Словообразующие аффиксы шести видов в азербайджанском языке

**Ислам Садыг**
Доктор филологических наук
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: islamsadiq1953yahoo.com

**Резюме.** В азербайджанском языке новые слова образуются разными путями. Соединение согласных к гласным вначале и в конце, повторение и перемещение слогов, соединение простых слов, присоединение к корням словообразующих аффиксов и др. больше исполь-

зуются в словообразовании. Эти вопросы неоднократно исследованы в азербайджанском языкознании.

Азербайджанский язык очень богат словообразующими аффиксами. Ясно видно, что в основе словообразовании стоит присоединение к корням словообразующих аффиксов. Слова, образующиеся этим путем, занимают большое место в лексическом фонде азербайджанского языка.

Написанию в двух и четырех видах словообразующих аффиксов в азербайджанском языке посвящен ряд исследований. Несмотря на то, что большинство словообразующих аффиксов пишутся в шести видах, к этой проблеме не коснулись в азербайджанском языкознании.

В данной статье впервые показывается, что ряд словообразующих аффиксов в азербайджанском языке пишется в шести видах. Показано, что словообразующие аффиксы *maq, mək, mıq, mik, muq, mük* преобразованы путем прибавления согласных звуков *г* и *к* к концу словообразующих аффиксов *ma, mə, mı, mi, mu, mü*, на основе многих примеров доказывается, что с помощью этих аффиксов образованы много слов.

**Ключевые слова:** азербайджанский язык, словообразующий аффикс, аффиксы, написанные в шести видах, словообразование